**Təsdiq edirəm:**

**Azərbaycan Qiymətləndiricilər Palatasının**

**Sədri Nüsrət İbrahimov** **01.02.2025**

# Azərbaycan Qiymətləndiricilər Palatasının qiymətləndirici təşkilatlara dair Reqlamenti

Bu Reqlament "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, "Qiymətləndiricinin etik davranış qaydaları", Qiymətləndiricilər Palatasının Nizamnaməsi (Bundan sonra Palata və Palatanın Nizamnaməsi), habelə digər əlaqəli qanunvericiliyə və Beynəlxalq Qiymətləndirmə Standartlarına (BQS) əsasən hazırlanmışdır.

## 1. Hüquqi Status

Qiymətləndirici təşkilat Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçməli, fəaliyyət göstərməli, əsas fəaliyyət sahəsi qiymətləndirmə fəaliyyəti olmalı və qiymətləndirmə fəaliyyətinin istiqaməti (istiqamətləri) üzrə ixtisaslaşmalıdır.

Qiymətləndirmə fəaliyyəti istiqamətləri üzrə ixtisaslaşma təşkilatın Nizamnamə və dövlət qeydiyyatı sənədlərində göstərilməlidir.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin sayı 2(iki) nəfərdən az olmamalıdır.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiriciləri Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, ixtisas şəhadətnaməsi almış qiymətləndirici olmalı, Palatanın üzvü olmalıdır.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin qəsdən ağır və xüsusilə ağır cinayətlərə, korrupsiya cinayətlərinə və ya iqtisadi sahədə cinayətlərə görə məhkumluğu olmamalıdır.

## 2. Peşəkar fəaliyyətə dair tələblər

Təşkilat qiymətləndiricilərinin Palatanın tələblərinə uyğun əlavə təhsil almasını və ixtisasartırma tədbirlərində iştirakını təmin etməlidir.

Təşkilat və onun qiymətləndiriciləri Qiymətləndiricilər Palatası tərəfindən təsdiq edilmiş etik davranış qaydalarına riayət etməlidirlər.

Təşkilat qiymətləndirmə fəaliyyəti istiqamətində Palata tərəfindən qəbul edilmiş standartlara (məsələn, IVS - Beynəlxalq Qiymətləndirmə Standartları) uyğun fəaliyyət göstərməli və bu istiqamətdə təsdiqlənmiş yanaşma və metodları tətbiq etməlidir.

Təşkilat əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin peşə məsuliyyətinin sığortalanmasını təmin etməli və sığorta şəhadətnaməsi haqqında məlumatları Palatanın rəsmi internet səhifəsində yerləşdirmək üçün təqdim etməlidir.

Təşkilat sifarişçi ilə bağlanan müqavilələrdə və qiymətləndirmə nəticələri haqqında hesabatlarda qanunla müəyyən edilmiş məlumatları göstərməlidir.

3. Texniki və İnzibati Tələblər

Təşkilat Palatanın saytında qeydiyyat üçün aşağıdakı sənədləri təqdim etməlidir:

- Təşkilatın tam adı və hüquqi ünvanı;
- Nizamnamənin surəti;
- VÖEN və dövlət qeydiyyatı haqqında şəhadətnamə;
- Rəhbər şəxs haqqında məlumat;
- Fəaliyyət ünvanı və əlaqə vasitələri;
- Qiymətləndirici əməkdaşların siyahısı, ixtisas sənədləri və üzvlük statusu.

Fəaliyyət və kadr məlumatları dəyişdikdə Palataya 10 iş günü ərzində yazılı bildiriş təqdim edilməlidir.

4. Pozuntu halları və onlara qarşı tədbirlər

Palata aşağıdakı hallarda təşkilatı siyahıdan çıxara bilər:

- Məhkəmə qərarı əsasında;
- Özü, həmçinin əməkdaşları haqqında saxta və ya yalan məlumat və sənədlərin təqdim edilməsi;
- Beynəlxalq və milli qiymətləndirmə standartlarının kobud şəkildə pozulması;
- Qiymətləndiricinin etik davranış qaydalarının və ya qanunvericiliyin pozulması;
- Palata tərəfindən qanuni fəaliyyətin təmin olunması, qanunvericiliyin icrası və dövlət orqanları ilə əməkdaşlıq məqsədilə tələb edilən sənədlərin və məlumatların müəyyən edilmiş müddətdə qiymətləndirici təşkilat tərəfindən təqdim edilməməsi.

Sədr müavini Ayan Qəmbərova ____________________

Sədr müavini Günay İsmayılqızı ____________________

İntizam Komissiyasının sədri Nahid Həsənov ____________________

Hüquq şöbəsinin rəhbəri Cavid Məmmədkərimov ____________________